# İdxal olunan bəzi bioloji aktiv qida məhsullarında aşkarlanmış uyğunsuzluğa dair məlumat

**(23 oktyabr 2024)**

Nəzarət tədbirləri çərçivəsində “NF Star” MMC-nin və “Loğman Farm” MMC-nin Türkiyədən idxal etdiyi bioloji aktiv qida məhsullarından Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən götürülmüş nümunələrin müayinəsi nəticəsində uyğunsuzluq aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülərək, tələblərə cavab verməyən bioloji aktiv qida məhsulları məhv edilib.

Uyğunsuzluq aşkarlanmış bioloji aktiv qida məhsulu partiyaları aşağıdakılardır:

1. “İlaçsan Medikal San.Tic.LTD.ŞTİ” müəssisəsinə məxsus 3000 ədəd “Foxxol, kapsul №30” əmtəə nişanlı bioloji aktiv qida məhsulu (01.04.2024-01.04.2027-ci il istehsal və son istifadə tarixli, 908005 partiya nömrəli);
2. “Greenland İlaç Gıda Takviyeleri ve Kozmetik San.Tic.LTD.ŞTİ” müəssisəsinə məxsus 3000 ədəd “Secret of Power, daxilə qəbul üçün məcun 240Q” əmtəə nişanlı bioloji aktiv qida məhsulu (01.02.2024-01.02.2027-ci il istehsal və son istifadə tarixli, 051 partiya nömrəli).